Uşaqlar üçün Müqəddəs Kitab
təqdim edir

# Yezekel: Görüntülər Adamı



Müəllif: Edward Hughes

İllüstrasiya edən: Lazarus; Alastair Paterson

Uyğunlaşdıran: Ruth Klassen

Tərcümə edən: Günay Əsədova

Təqdim edən: Bible for Children
www.M1914.org

©2021 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.

Uzaq keçmişdə qüdrətli ordular Yəhudaya hücum edərək, Allahın xalqının çoxunu Babilə sürgün etdilər.



Bu Yəhudilər evdən uzaqda, Kevar çayı sahilində yaşayırdılar. Onların arasında Allahın qulu, Yezekel peyğəmbər var idi.



Bir gün Allah Yezekelə görüntü verdi. Allahın izzəti dörd odlu məxluq formasında, parlaq işıq kimi peyda oldu.



Hər bir məxluqun dörd üzü və dörd qanadı var idi.  Onların üstündə işıq saçan göy qurşağı kimi gözəl yaqut taxt var idi.  Yezekel bunu görəndə üzüstə yerə yıxıldı.



Allah Yezekel ilə danışdı: “Mən səni İsrail övladlarının yanına göndərirəm. Mənim Sözümü onlara danış, çünki onlar üsyankardırlar”.



Mənə tərəf bir əl uzandı və əlin içində bir tumar var idi.

"Bu tumarı ye" Allah dedi "və get İsrail nəslinə söylə". Necə də qəribə əmr! Amma Yezekel itaət etdi, tumarı yedi və getdi.



Allahın Ruhu Yezekeli doldurdu və onu Kevar çayı sahilində yaşayan sürgün Yəhudilərin yanına apardı. Yeddi gün orada onların arasında çaşqınlıq içində yaşadı.



Sonra Allah Yezekeli gözətçi etdi. O, pis adamlara Allaha itaət etmək üçün xəbərdarlıq edirdi.






Yezekel Allahın Sözünün insanlara aydın olması üçün çoxlu qəribə şeylər etdi. O, kərpic götürdü və onu qarşısına qoyub üstündə Yerusəlim şəhərini təsvir etdi.




Bəlkə o, Yerusəlimin ətrafında qüdrətli ordu fiqurları çəkərkən, adamlar onun çiyinləri üstündən baxırdılar.  O göstərirdi ki, Allah müqəddəs şəhəri tezliklə məhv edəcək.

Şimal padşahlıq olan İsrail 390 il
və cənub padşahlıq olan Yəhuda 40 il
Allaha itaətsizlik etdi. Buna görə də İsrail
dağıdılmışdı və Yəhuda da tezliklə
dağılacaqdı.



Allah Yezekelə xalqa onların günah illərini xatırlatmaq üçün 390 gün sol yanı üstə, 40 gün də sağ yanı üstə uzanmasını dedi.





Ola bilsin ki, camaat Yezekelin çox qəribə adam olduğunu fikirləşməyə başlayırdı.  O, Allahın ona dediyi hər şeyi edirdi.  Bir gün o, saçını qırxdı və onun üçdə bir hissəsini yandırdı.






Bu, Yerusəlimdəki camaatın üçdə bir hissəsinin Babil ordusu şəhərə hücum edərkən xəstəlikdən və aclıqdan öləcəyini göstərmək üçün idi.





Yezekel saçının digər üçdə bir hissəsini götürdü və onu qılıncla doğradı.  Bu, camaatın üçdə bir hissəsinin düşmənin qılıncı ilə öləcəyini göstərmək üçün idi.



Amma o, saçının çox az hissəsini Allahın xalqının bəzi hissəsini sağ saxlayacağına və onları Vəd olunmuş Torpağa qaytaracağının əlaməti olaraq, paltarının



ətəyinə bağladı.

Bu cəsarətli peyğəmbər əsirlikdə olan Yəhudilərə onların yaxşılığa ümid etdiyi kimi yox, vəziyyətin daha da pisləşəcəyini dedi. Camaat Yezekelə hirsləndi, ancaq o, Allahın Sözünü danışmağa davam etdi.



Bir gün o, İsrailin ağsaqqalları ilə oturarkən, Allah Yezekelə görüntü verdi.  Görüntüdə Allah onu saçlarından qaldırdı və Yerusəlimdəki məbədə götürdü.



Məbəddə Allah Yezekelə sürünən, natəmiz vəhşi heyvanları və bütləri göstərdi. Bunlar heç vaxt Allahın məbədində olmamalıydı.



Ağsaqqallar Allaha ibadət etmək əvəzinə bunlara ibadət edirdilər.  Allah həmçinin Yezekelə Onun izzətinin ...



... məbədi tərk etdiyini və oranın dağılacağını göstərdi.  Görüntü bitəndə Yezekel Yəhudilərə bu haqda danışdı.



Allahın dediyi hər şey yerinə yetdi.



Yerusəlim məhv oldu. Çox sayda adam həlak oldu.  Babildə əsirlikdə olan Yəhudilər bunu eşidəndə onlar Allahın Öz xalqını əbədiyyən tərk edib-etmədiyini fikirləşdilər.


Amma Allah Öz peyğəmbərinə başqa bir xəbər verdi.


O, Yezekeli quru sümüklərlə - insan sümükləri ilə dolu olan bir vadiyə götürdü.

Allah Yezekeldən soruşdu: “Ey bəşər oğlu, bu sümüklər dirilə bilərmi?” Yezekel cavab verdi: “Ey Rəbb Allah, bunu Sən bilirsən”.



Əlbəttə, quru sümüklər yenidən dirilə bilməzdi.  Rəbb dedi: “Bu sümüklər üçün peyğəmbərlik edib onlara söylə ki, ey quru sümüklər, Rəbbin sözünü eşidin!



Siz diriləcəksiniz”.  O itaət edəndə Yezekel bir gurultu eşitdi.  Səncə, buna nə səbəb oldu?



Peyğəmbər heyrətlə buna baxanda gördü ki, sümüklər yaxınlaşdı, sümük sümüyə bitişdi.



Sonra üstlərinə vətərlər gəldi, ət bitdi.



Bunları isə dəri örtdü.
Ancaq onlarda nəfəs yox idi.



Rəbb mənə dedi: “Ey bəşər oğlu, peyğəmbərlik edib nəfəsə söylə ki, ey nəfəs, küləyin əsdiyi dörd səmtdən gəl, bu öldürülən adamların üzərinə üfür ki, dirilsinlər”.



Yezekel belə edəndə nəfəs onların daxilinə girdi. Onlar dirilib ayaq üstə qalxdı. Çox böyük bir kütlə yarandı. Allah Babildəki Yəhudilərin Yerusəlim dağılanda ümidsiz olduqlarını bilirdi.



O, Yezekelin görüntüsü vasitəsilə xəbər göndərdi. Allah dedi: “O sümüklər İsrail nəslidir”. “Mən daxilinizə Öz Ruhumu qoyacağam və sizi öz torpağınıza yerləşdirəcəyəm”.



Allahdan necə də gözəl ümid xəbəri!
Allahın Yezekel vasitəsilə verdiyi vədlər
Yəhudilər öz topraqlarına qayıdarkən

yerinə
yetdi.



Onlar bildilər ki, Rəbb Allah onları evə gətirdi.  Allahın Sözü həmişə yerinə yetir.



# Yezekel: Görüntülər Adamı

Allahın Sözü, Müqəddəs Kitabdan
olan bir hekayədir

Yezekel

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130

Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan.  Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim.  Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et.  Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış!   Yəhya 3:16**